**Bank Respublika ASC-nin plastik kartlarının əldə edilməsinə və istifadəsinə dair MÜQAVİLƏ**

Bir tərəfdən bundan sonra **«Bank»** adlandırılan, Bank Respublika ASC, və digər tərəfdən bundan sonra **«İstifadəçi»** adlandırılan, Ərizəçi Şəxs, «Plastik kartların əldə edilməsinin və istifadəsi»nin əsas şərt və qaydalarının müddəalarını müəyyənləşdirmək məqsədilə aşağıdakı məzmunda həmin müqaviləni bağladıq:

**MADDƏ 1. Müqavilədə istifadə edilən terminlərin anlayışı.**
**ATM:** Nağd pulun ödənilməsi üçün istifadə olunan avtomatik qurğu.
**PLASTİK KART:** Bankın Ərizəçi Şəxsə müvafiq xərc limiti daxilində müəssisələrlə hesablaşmalar aparılmasında, məntəqə və ATM-lərdən nağd pulun alınmasında istifadə etmək üçün verdiyi plastik materialdan hazırlanmış və xüsusi üsullarla mühafizələnmiş kart.
**ƏLAVƏ KART:** Bank tərəfindən verilən, İstifadəçinin Bankdakı hesabına bağlı olan və ona müəyyən edilmiş xərc limiti daxilində Plastik kartla yanaşı işləmə qabiliyyəti və onun malik olduğu bütün funksiyalara malik olan kart.
**MÜƏSSİSƏ:** Satılan mal və göstərilən xidmət əvəzində müvafiq plastik kartları ödəniş vasitəsi kimi qəbul edən ticarət, xidmət və s. müəssisə və məntəqələri.
**SATIŞ SƏNƏDİ** (hesab, slip vauçer): Plastik kart vasitəsilə satılan mal və göstərilən xidmət əvəzində müəssisə tərəfindən tərtib edilən İstifadəçi və yaxud əlavə İstifadəçi tərəfindən imzalanan sənəd.
**«KREDİT» HESABI:** Plastik kart vasitəsilə satın alınmış malın qaytarılması, göstərilən xidmətin dayandırılması, səhv olaraq artıq pul alınmasına dair müəssisə tərəfindən hazırlanan və imzalanan sənəd.
**LİMİT:** Bank tərəfindən müəyyən edilən, əsas və yaxud əlavə İstifadəçi tərəfindən çəkilən xərc və nağd alınan pulların ümumi həcminin son həddi və ya aşılmayacağı məbləğ.
**ÖDƏMƏ MÜDDƏTİ:** Plastik kart vasitəsilə hər hansı əməliyyat aparılan gündən borcun son ödəmə tarixinə qədər olan müddət.
**SON ÖDƏMƏ TARİXİ:** Hər təqvim ayının sonuncu iş günü.

**MADDƏ 2. Müqavilənin predmeti.**
Bu müqavilə Bank tərəfindən buraxılan, Respublika ərazisində və xaricdə istifadə edilə bilən plastik kartların verilməsi və onlardan istifadə edilməsi ilə bağlı Bank və İstifadəçi arasında hüquq-münasibətlərin əmələ gəlməsini, onların hüquq və vəzifələrini, məsuliyyət dairəsini, plastik kartlardan istifadənin əsas şərtləri və qaydalarını, tərəflər arasında bu sahədə əmələ gələ bilən başqa münasibətləri müəyyən edir və tənzimləyir.

**MADDƏ 3. Plastik kartın əldə edilməsi.**
Plastik kartı əldə etmək üçün ərizəçi şəxs doldurulmuş ərizə ilə tələb olunan sənədləri Bankın müvafiq xidmət bölməsinə təqdim etməlidir. Bank İstifadəçiyə verdiyi əsas kartla yanaşı, ərizəçinin lazım bildiyi, həddi-buluğa çatmış şəxslərə – yaxın qohumlarına əlavə kart verə bilər. Əlavə kartlarla aparılan bütün əməliyyatlar üçün tam məsuliyyəti İstifadəçi daşıyır. Plastik kartın arxasında mövcud olan imza yeri, kartın verildiyi vaxt, kartın üzərində soyadı və adı yazılmış şəxs tərəfindən imzalanmalıdır. Plastik kartın imzalanması ilə bağlı meydana gələ biləcək problemlərlə bağlı məsuliyyət İstifadəçinin üzərinə düşür.

**MADDƏ 4. Müqavilənin bağlanması.**
Ərizəçi tərəfindən həmin Müqavilənin imzalanması Bank qarşısında ona kartı vermək məcburiyyətini yaratmır. İstifadəçi kartlardan onların istifadə etmə müddəti ərzində Azərbaycan Respublikasının qanunlarına, ödəniş sisteminin qaydalarına, bu Müqavilənin şərtlərinə, Bankın müəyyən etdiyi və gələcəkdə edəcəyi qaydalara əsasən istifadə etməyi öhdəsinə götürür. İstifadəçi plastik kartla bağlı bütün məsələlərə aid məlumatları Bank tərəfindən Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun surətdə müvafiq dövlət orqanlarına və başqa dairələrə verilməsini əvvəlcədən qeyd-şərtsiz qəbul edir. Bank İstifadəçini xəbərdar etmədən kartdan istifadə şərtlərinə dair bu Müqaviləyə birtərəfli qaydada dəyişiklik etmək hüququna malikdir.

**MADDƏ 5. Kartın verilməsi üçün təminat.**
Bank plastik kartın verilməsinə görə uyğun gördüyü hər cür təminatı İstifadəçindən tələb etmək hüququna malikdir. İstifadəçi Bankın müəyyən etdiyi şərt və formalarda təminat verməyə borcludur. Bank mümkün ola bilən ziyanın qarşısını almaq üçün müəyyən etdiyi miqdarda sığorta depozitinin və ya girovun qoyulmasını tələb edə bilər və istədiyi vaxt bu miqdarı dəyişə bilər. İstifadəçinin hər hansı şəkildə Banka verdiyi təminat plastik kartdan bu Müqaviləyə uyğun istifadə ilə bağlı yarana bilən borcların qaytarılması üçündür.

**MADDƏ 6. Faizlər, komisyon haqları və digər ödəmələr.**
İstifadəçi plastik kartdan istifadə ilə bağlı yaranan borcu, həmçinin bu Müqaviləyə 1 saylı əlavədə göstərilmiş faizi, komisyon haqlarını və digər ödəmələri ödəməyi öhdəsinə götürür. Bank əməliyyat vaxtı xarici valyutanın hesablaşma valyutasına konvertasiyası üçün əlavə komisyon haqqı almaq hüququna malikdir.

**MADDƏ 7. Mal və xidmətlərin alışı, nağd pul alma**.
İstifadəçi plastik kartı ödəniş vasitəsi kimi qəbul edən müəssisələrdə mal və ya xidmət almaq, plastik kartın loqotipi olan ATM və məntəqələrdən nağd pul almaq hüququna malikdir və bu əməliyyatlarda Bankın müəyyən edəcəyi limitləri aşmamağı öhdəsinə götürür. İstifadəçi müəssisədə mal və ya xidmət alışı vaxtı, həmçinin müvəkkil məntəqələrdən nağd pul alarkən onlar tərəfindən tərtib edilən satış sənədini imzalayır və sənəd üzərindəki qeydlərə görə etiraz etməyəcəyini öhdəsinə götürür. Müəssisə və məntəqələrin məsul şəxsi İstifadəçindən onun şəxsiyyətini təsdiq edən rəsmi sənəd tələb edə bilər. İstifadəçi hesabının vəziyyətini bilmək məqsədilə müəssisədə tərtib edilən satış sənədlərinin surətini özündə saxlamalıdır. Bank İstifadəçinin müəssisədən satın aldığı mal və xidmətlərin növü, mahiyyəti, məzmunu, keyfiyyəti və miqdarına görə məsuliyyət daşımır və bu halda təhqiqat aparmağa məcbur deyil. İstifadəçi plastik kart ilə aparılan əməliyyatların, alınan nağd pulun məbləğinin əməliyyat aparıldığı tarixdə qüvvədə olan faiz və komisyon haqları ilə birlikdə hesabından silinəcəyini və ya borc kimi qeyd ediləcəyini qəbul edir. İstifadəçi istirahət günlərində aparılan əməliyyatlarının sonrakı birinci iş gününə müvafiq olaraq hesablanacağını qəbul edir. ATM-lərdən nağd pul alma əməliyyatında, nağd ödəmə sənədi tərtib edildiyi üçün, İstifadəçi Bankın bu əməliyyatlar barədə qeydlərinin qəti dəlil olduğunu qəbul edir.

**MADDƏ 8. «Kredit» əməliyyatı.**
İstifadəçi tərəfindən plastik kart vasitəsilə alınmış bir malın qaytarılması, xidmətin dayandırılması, artıq alınan pulun geri qaytarılması üçün müəssisə tərəfindən «Kredit» hesabı tərtib edilir. «Kredit» hesabının tərtib edilməsi İstifadəçinin bəhs olunan mal və xidmət üçün əvvəllər imzaladığı satış sənədinə görə yaranan borc və öhdəliklərini ləğv etmir. Bank «Kredit» hesabını müəssisədən almayınca, İstifadəçi bu barədə heç bir iddia və tələb irəli sürə bilməz. İstifadəçi müəssisədə bir malın qaytarılması və xidmətin dayandırılması hallarında, özü ilə müəssisə arasında yarana biləcək münasibətlərə və bu münasibətlərdən irəli gələn nəticə və mübahisələrə görə Bankın məsuliyyət daşımayacağını qəbul edir.

**MADDƏ 9. Hesabdan çıxarış.**
Plastik kartın ölkə daxilində və ya xaricdə istifadəsi nəticəsində yaranan bütün borc və öhdəliklər haqqında qeydlər hesabdan çıxarışda öz əksini tapır. Hesabdan çıxarış müvafiq sənədlərlə İstifadəçi tərəfindən bu Müqavilədə göstərilən ünvana göndərilir və ya İstifadəçi özü onu Bankdan alır. Hesabdan çıxarış ünvanına çatmadığı halda, İstifadəçi son ödəmə tarixindən başlayaraq 7 (yeddi) gün ərzində hesabdan çıxarışı Bankdan götürməlidir. Əks təqdirdə, İstifadəçi hesabdan çıxarışı almış və məzmunu ilə də razılaşmış kimi qəbul edilir. Hesabdan çıxarış borc və ödəmələri əhatə edən mühüm sənədlərdən biri kimi qəbul edilir. Yaranmış borc müəyyən edilmiş qaydada və müddətdə qaytarılmadıqda, Bank İstifadəçini xəbərdar etmədən kartın fəaliyyətini dayandıra bilər.

**MADDƏ 10. Borcların ödənilməsi.**
İstifadəçi yaranmış borcu son ödəmə tarixinə qədər Banka ödəməlidir. Nağd pul alma əməliyyatına görə hesablanan komisyon haqqı Bank tərəfindən nağd pul alma tarixindən etibarən tətbiq olunur. Ödəmələrdə Bank tərəfindən müəyyən edilən valyuta məzənnələri əsas kimi götürülür. İstifadəçi limitini aşdığı təqdirdə, kartın istifadəsini dayandıracağını, bu Müqaviləyə əsasən olan bütün borc və öhdəlikləri təcili yerinə yetirəcəyini və bununla əlaqədar hesablanacaq cəriməni ödəməyi öhdəsinə götürür.

**MADDƏ 11. Bankın müsadirə etmək hüququ.**
İstifadəçi Banka olan və yarana biləcək bütün borclarına görə Bankda olan və bu Müqavilə ilə heç bir əlaqəsi olmayan mövcud vəsaitlərinin, əmanətlərinin, əmlaklarının, hesablarının, depozitlərinin, qiymətli kağızlarının Bank tərəfindən girov götürülməsinə, müsadirə edilməsinə və hesabına daxil edilməsinə razılığını bildirir. Əgər İstifadəçi Bankın işçisidirsə və ya əmək haqqı kartına malikdirsə, borclarını vaxtında ödəmədikdə, aldığı maaş, mükafat, divident və bütün alacaqları üzərində Bankın əl qoymaq hüququnun olduğunu, İstifadəçiyə xəbərdarlıq etmədən vəsaitlərinin yuxarıda göstərilən şəkildə müvafiq hesaba daxil edilməsini qəbul edir.

**MADDƏ 12. Plastik kartın limiti.**
Plastik kartın limiti Bank tərəfindən müəyyən edilir. Bank plastik kartın limitini birtərəfli şəkildə dəyişdirmək səlahiyyətlərinə malikdir. İstifadəçi Bankın təyin etdiyi limiti qəbul edəcəyini və bu

öhdəliklərdən məlumatının olmamasına istinadən etiraz etməyəcəyini öz öhdəsinə götürür. İstifadəçi limiti aşdığı hallarda, Bank tərəfindən müəyyən edilib tətbiq edilən cərimələri qəbul edir.

**MADDƏ 13. Kartın qüvvədə olduğu müddət.**
İstifadəçi kartların üzərində yazılmış ay və il kimi göstərilən sonuncu istifadə etmə tarixinin Bank tərəfindən müəyyən edildiyini, göstərilən ayın sonuncu gününə qədər kartın qüvvədə olduğunu və bu tarixdən sonra kartdan istifadə etməyəcəyini qəbul edir. Kartın üzərində yazılan sonuncu istifadə etmə tarixindən sonra kartın istifadə edilməsi ilə bağlı olan hər cür məsuliyyəti İstifadəçi daşıyır.

**MADDƏ 14. Xidmət haqqı.**
İstifadəçi hər bir kart üçün Bank tərəfindən müəyyən edilmiş miqdarda xidmət haqqı ödəyir. İstifadəçi kartı dəyişdirmək barədə Banka müraciət etdikdə, xidmət haqqı İstifadəçinin hesabından silinir və ya borc kimi yazılır. İstifadəçi kartların dəyişdirilməsi ilə bağlı kartı qaytararaq Banka müraciət etmədikdə, Bank, lazım bildiyi təqdirdə, kartın xidmət haqqını tutaraq onu yeni müddətə uzatmaq hüququna malikdir. Belə olan təqdirdə, İstifadəçi yarana bilən borcun ödənilməsinə heç bir etiraz etmədən müvafiq məbləği dərhal Banka ödəməlidir.

**MADDƏ 15. Kartın mənsubiyyəti.**
Kart Bankın mülkiyyətidir və lazım olduqda Bank və ya ödəniş sisteminin üzvü olan təşkilatlar kartı İstifadəçidən geri ala bilərlər. İstifadəçi kartın itməsi, oğurlanması və ya üzərində təhriflər edilməsi üçün məsuliyyət daşıyır. Kart itdikdə və ya oğurlandıqda, Bankın «Müştərilərə xidmət departamenti»nə təcili xəbər verilməlidir. Bu barədə məlumatın Banka daxil olduğu vaxtdan etibarən 30 (otuz) gün ərzində bu kartla aparılan əməliyyatlara görə məsuliyyəti İstifadəçi daşıyır. Kartın itməsini xəbər verən şəxs bu xəbərdən sonra kartın Bank tərəfindən etibarsız sayılacağını, kartın sonradan tapılması halında isə kartı istifadə etməyəcəyini və Banka qaytaracağını öhdəsinə götürür. İstifadəçi adı çəkilən hallarda Bankın çəkə biləcəyi bütün zərərləri ödəməyi öhdəsinə götürür. Bank tərəfindən yeni bir kartın verildiyi halda, İstifadəçi kartın yenilənməsi ilə bağlı bütün xərcləri ödəməyi öhdəsinə götürür.

**MADDƏ 16. Kartın fəaliyyətinin dayandırılması və ləğvi.**
Kartın sonuncu istifadə etmə tarixindən əvvəl pis əməllə istifadə edilməsi, limitin aşması və ya İstifadəçinin bu Müqavilə ilə müəyyən edilmiş şərtlərin hər hansı bir müddəasına əməl etməməsi səbəbi ilə və yaxud səbəb göstərmədən Bank kartın istifadə edilməsini dayandıra bilər. Bundan əlavə, İstifadəçinin müflisləşməsi və onun başqa şəxsin qəyyumluğuna, himayəçiliyinə, tabeçiliyinə keçməsi ilə əlaqədar olaraq Bank bu Müqaviləni birtərəfli qaydada ləğv etmək və İstifadəçidən alacağı məbləği tələb etmək hüququna malikdir. İstifadəçi vəfat etdikdə, kartın fəaliyyəti dayandırılır və yaranmış borcların təcili ödənməsi qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq onun vərəsələrinin üzərinə düşür. Bank, səbəb göstərmədən, İstifadəçidən kartın geri qaytarılmasını tələb edə bilər. Bundan əlavə, Bank istifadə müddəti başa çatmış kartın dəyişdirilməsindən imtina edə bilər. Bank tərəfindən kartın fəaliyyətinin dayandırıldığı və kartın dəyişdirilməsindən imtina edildiyi halda, İstifadəçi Bank qarşısında olan borc və başqa öhdəliklərini bütövlüklə yerinə yetirənə qədər bu Müqavilənin müddəalarının qüvvədə olduğunu qəbul edir. İstifadəçi kartın fəaliyyətinin dayandırılmasına baxmayaraq, onu istifadə etdiyi halda yaranacaq borc və cərimələrin ödənilməsini öhdəsinə götürür. Yuxarıda göstərilən hallarda, İstifadəçi əlavə bir xəbərdarlığa ehtiyac görmədən bütün borclarını dərhal ödəyəcəyini qeyd-şərtsiz qəbul edir. İstifadəçi öz əməlləri ilə Bankı artıq maliyyə riskinə düçar edərsə, əlavə kartın fəaliyyəti dayandırıla bilər. Belə olan təqdirdə əlavə kart Banka qaytarılmayınca baş verə biləcək bütün zərərlərə cavabdehliyi İstifadəçi daşıyır.

**MADDƏ 17. İstifadəçinin məsuliyyəti.**
İstifadəçi hər hansı bir səbəbə görə kartın üçüncü şəxslər tərəfindən istifadə edilməsi üçün məsuliyyət daşıdığını, bu barədə Banka şikayət və etiraz etməyəcəyini, belə hallarda Bankın çəkəcəyi ziyanı ödəyəcəyini qəbul edir və öhdəsinə götürür. Gizli saxlanmalı olan şifrin (PİN) üçüncü şəxslər tərəfindən öyrənilməsinə görə məsuliyyəti İstifadəçi daşıyır. Belə olan hallarda, İstifadəçi Banka dərhal məlumat verməlidir. Əks təqdirdə, İstifadəçi özünün və yaxud əlavə kartı işlədən şəxsin ölümündən və ya kartın itirilməsindən, oğurlanmasından sonra üçüncü şəxslərin gizli şifri istifadə edərək apardıqları əməliyyatlar üçün Bankın məsuliyyət daşımayacağını və bu səbəbə görə İstifadəçinin özünün, yaxud əlavə İstifadəçinin və ya vərəsələrin Bank qarşısında heç bir tələb irəli sürməyəcəklərini qəbul edir və öhdəsinə götürür. İstifadəçi hər hansı bir məntəqə və ya ATM-də kartın qəbul edilməməsində, hər hansı bir səbəb üzündən avtorizasiyaya etiraz edilməsində Bankın cavabdehlik daşımadığını qəbul edir. İstifadəçi kartın heç bir qanunsuz əməliyyatda, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan hər hansı bir mal və xidmətin alınmasında istifadə edilməməsini qəbul edir.

**MADDƏ 18. İstifadəçinin etiraz etmə hüququ. Bankın dəlilləri.**
İstifadəçinin hesab xülasəsi ilə bildirilən borc və ödənişlər haqqında qeydlərinə dair etiraz etmək hüququ gizli saxlanılır. İstifadəçi öz etirazlarını 30 gün ərzində yazılı şəkildə Banka bildirəcəyini, sonrakı etiraz və kartla bağlı olaraq meydana çıxacaq bütün anlaşılmazlıqlarda Bankın sənədləri, yazıları və kompyuter məlumatları daxil olmaqla bütün qeydlərinin qəti dəlil olacağını, onlara etiraz etməyəcəyini qəbul edir və öhdəsinə götürür.

**MADDƏ 19. İstifadəçi haqqında məlumatlar.**
İstifadəçi ad, soyad, ünvan, imza və s. məlumatların dəyişməsi barədə Banka yazılı şəkildə müraciət etməyi öhdəsinə götürür. İstifadəçinin yaşayış yeri kimi göstərdiyi ünvana Müqavilədə göstərilən müddəaların yerinə yetirilməsi üçün göndəriləcək məlumatlar ona göndərilmiş və çatdırılmış kimi sayılacaq. Bundan sonra ediləcək ünvan dəyişikliklərini Banka bildirmədiyi təqdirdə, İstifadəçi əvvəlki yaşayış yerinə göndəriləcək məlumatlara etiraz etməyəcəyini qəbul edir.

**MADDƏ 20. Mübahisələrin həlli qaydası.**
Bu Müqavilənin icrası zamanı yaranmış mübahisə və münaqişələrin həlli danışıqlar yolu ilə həll edilir. Qarşılıqlı razılıq əldə edilmədikdə, mübahisə və münaqişələr qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə məhkəmə qaydasında həll edilir. Bununla əlaqədar olaraq çəkilmiş və ya çəkilməli olan bütün xərclər xeyrinə qərar çıxarılmış tərəf üçün digər tərəfdən alınır.

**Maddə 21. Digər müddəalar.**
Bu müqavilə ilə tənzimlənməyən bütün məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir. Həmin müqavilə hər biri eyni hüquqi qüvvəyə malik olan və tərəflərdə saxlanılan iki əsl nüsxədən ibarət tərtib edilmişdir.

**MADDƏ 22. Tərəflərin müqaviləni imzalaması.**
Yuxarıda özü haqqında yazılı şəkildə bildirdiyi məlumatların düzgün və dolğun olduğunu, tələb olunan sənədləri vaxtında Banka təqdim edəcəyini, plastik kartın və ya kartların alınması haqqında xahişinin müsbət həll olunduğu təqdirdə, illik xidmət haqqını və digər ödəmələri vaxtında ödəyəcəyini, «Plastik kartların əldə edilməsinə və istifadəsinə dair» bu Müqaviləyə, həmçinin kartların istifadəsi ilə bağlı Bank tərəfindən müəyyən edilən qayda və dəyişikliklərə riayət edəcəyini İstifadəçi qeyd-şərtsiz qəbul edir, Bank bu Müqavilənin qüvvədə olduğu dövr ərzində İstifadəçiyə dünya standartlarına uyğun bank xidməti göstərəcəyini bəyan edir və həmin Müqaviləni qarşılıqlı surətdə imzalayırlar.

***BANK:*** ____________________________________
(imza, möhür, vəzifəli şəxsin soyadı və inisialları)

***İSTİFADƏÇİ:*** ____________________________________
(imza, soyadı və inisialları)